Aqrar Xidmətlər
Agentliyi



# FASSİOLYOZ parazitar xəstəlikdir

## Xüsusiyyətlər

- Fassiolyoz xəstəliyinə qaramal, camış, zebu, qoyun və keçilər yoluxurlar
- Bu xəstəliyə qaraciyər qurdu, bəzən **kəpənə**kli ciyər olaraq tanınır
- Xəstəliyə respublikanın bütün rayonlarında təsadüf olunur
- Fassiolyoz xəstəliyini heyvanların qaraciyərində parazitlik edən sorucu qurdlar-fassiolalar törədir



# Əlamətləri

- Heyvan zəifləyir,  halsızlaşır
- Tədricən arıqlayır
- Selik təbəqələri solğunlaşır
- Sarımtıl-göyümtül rəngə çalır
- Yun və ya tük örtüyü parlaqlığını itirir, pırpızlaşır
- Boyun, qarın, döş nahiyələrində yun və ya tük örtüyü tökülür
- Çənəaltı və döş nayihəsində soyuq eksudat yığılaraq şişlər əmələ gəlir
- Tez-tez su içir
- Qarın nahiyəsinin həcmi böyüyür
- Nəfəsalma çətinləşir, çox vaxt yatmış vəziyyətdə olur
- Süd məhsuldarlığı kəskin aşağı düşür
- Bir-iki gündə, bəzən isə heç bir əlamət olmadan qəflətən tələf olur





## Mübarizə tədbirləri

- Fassiolyoza qarşı vaxtında və **səmərəli** mübarizə tədbirlərinin aparılması heyvanların (sürü və naxırın) sağlamlığına zəmin yaradır

Bununla əlaqədar fermerlər və fərdi sahibkarlar yerli sahə baytarlıq məntəqələrinə və ya rayon (şəhər) baytarlıq idarələrinə müvafiq məsləhət və tövsiyə almaq, eləcə də heyvanlarının müalicəsi üçün müraciət edə bilər

- Fassiolyoza qarşı profilaktiki dehelmitizasiyanın aparılması vaxtı hər bir bölgənin epizootoloji vəziyyəti nəzərə alınmaqla rayonun, təsərrüfatın baytar həkimləri tərəfindən müəyyənləşdirilə bilər






## PROFİLAKTİKASI

- Qeyri-sağlam təsərrüfatlarda profilaktiki dərmanlama aşağıdakı vaxtlarda aparılmalıdır

Qaramal, camış və zebular həmçinin, yaylaq və qışlaqlardan istifadə edən köçəri qoyunçuluq təsərrüfatlarında da heyvanlar ildə iki dəfə mart-aprel və oktyabr-noyabr aylarında dərmanlanmalıdır

.



Heyvanlarda fassiolyoz xəstəliyinə qarşı müalicə-profilaktika işləri heyvan sahibinin hesabına aparılır!

## QEYD

**Aqrar Xidmətlər Agentliyi (AXA)**
fermer **və təsərrüfat** sahiblərinin **nəzərinə** çatd**ırır** ki, bu **və** ya digər x**əstəliklərə** qar**şı** aparılan tədbirlər **baytar həkiminin təyinatı**, tövsiyəsi **və** **iştirakı** ilə aparılma**lıdır** !





## Aqrar Xidmətlər Agentliyinin göstərdiyi xidmətlər

- BAYTARLIQ XİDMƏTLƏRİ
- BİTKİ MÜHAFİZƏ XİDMƏTLƏRİ
- TEXNİKİ NƏZARƏT XİDMƏTLƏRİ
- TOXUM NƏZARƏTİ XİDMƏTLƏRİ

Aqrar Xidmətlər Agentliyi

Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi 1652
info@axa.gov.az
www.axa.gov.az